BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT: 330.101:330.837:330.8**

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ FƏALİYYƏTİNİ TƏNZİMLƏYƏN ƏSAS BEYNƏLXALQ NORMALAR

**M.Y.YADULLA**
***Bakı Dövlət Universiteti***
***narqiz@mail.ru***

*Məqalədə AR-in xarici iqtisadi fəaliyyətini tənzimləyən və 2003-cü ildən üzvü olduğumuz Kyota Konvensiyasına dair bəzi müddəalar şərh olunmuşdur. Səlahiyyətli iqtisadi operator statusunun müəyyənləşdirilməsi və respublikamızın bu sahədə üzərinə götürdüyü öhdəliklərin əsas məqamları nəzərdən keçirilmişdir.*

**Açar sözlər:** yenidən baxılan Kyota konvensiyası, səlahiyyətli iqtisadi operator, sadələşdirilmiş gömrük prosedurları

Beynəlxalq müqavilələrlə bağlı təcrübədə gerçəkləşən məqamların elmi-tədqiqat müstəvisində də araşdırılması aktual səciyyə daşıyır. Bu baxımdan, bizim tədqiqat işinin predmetini də Azərbaycan Respublikasının Gömrük məcəlləsi, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və beynəlxalq müqavilələrlə müəyyən edilən səlahiyyətli iqtisadi operator statusu ilə bağlı öhdəliklər təşkil edir.

Kyoto konvensiyası -gömrük proseduralarının sadələşdirilməsi və hormonikləşməsi haqqında beynəlxalq konvensiya 18 may 1973-cü ildə imzalanmışdır. Bu konvensiya praktiki olaraq, bütün gömrük məsələlərini tənzimləyən gömrük işi sahəsində universal kodifikasiya edilmiş beynəlxalq hüquqi aktdır. Konvensiya:

- ✓ bir tərəfdən, gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi yolu ilə xarici ticarət fəaliyyətinin stimullaşdırılmasına;
- ✓ digər tərəfdən, belə sadələşdirilmə və sürətləndirilmənin dövlətin və cəmiyyətin maraqlarına ziyan vurmamasına (dövlət büdcəsinin gəlir hissəsinin doldurulması və daxili bazarın müdafiəsinə münasibətdə) istiqamətlənmişdir.

Yenidən baxılan Kyoto konvensiyası ticarət prosedurlarının sadələşdirilməsi sahəsində əsas gömrük konvensiyasıdır. O, Ümumdünya Gömrük

Təşkilatı tərəfindən işlənmiş, 3 fevral 2006-cı ildən qüvvəyə minmişdir. Bu konvensiya gömrük prosedurlarının sadələşdirilməsi və hormonikləşməsi haqqında 1973-1974-cü illərdə qəbul edilən Beynəlxalq Konvensiyanın (Kyoto konvensiyası) yeni redaksiyasını təcəssüm etdirir. Yenidən baxılan Kyoto konvensiyası gömrük proseduraları və qaydalarının sadələşdirilməsi və hormonikləşməsi yolu ilə ticarətin asanlaşdırılmasına yönəldilmişdir. Bununla əlaqədar, Konvensiya müasir gömrük prosedurları və metodikaları sahəsində standartlara və praktiki tövsiyyələrə malikdir. Bu konvensiyanın üzvlüyünü arzulayan ölkələr həm Konvensiyanın əsas mətnini, həm də ona Əsas əlavəni qəbul etməlidirlər ki, bu da mütləq xarakter daşıyır. Yenidən baxılan Kyoto konvensiyasına Əsas əlavə üzv-ölkələrin aşağıdakı əsas prinsiplərə riayyət etməsinə məsul edir:

- gömrük fəaliyyətinin şəffaflığı ;
- müşayətedici sənədlərin və malların bəyanetmə proseduralarının standartlaşdırılması və sadələşdirilməsi;
- səlahiyyətli subyektlər üçün proseduraların sadələşdirilməsi;
- informasiya texnologiyalarından maksimal istifadə;
- reqlament və qaydaların yerinə yetirilməsinin təmin olunması üçün zəruri gömrük nəzarətinin minimallaşdırılması;
- risklərin idarəetmə sistemindən istifadə və audit əsasında nəzarətin həyata keçirilməsi;
- sərhəddə digər orqanlarla birgə tədbirlərin aparılması
- ticarət sferasında əməkdaşlıq münasibətlərinin müəyyən edilməsi (3,245).

Bundan irəli gələrək, tədqiqat işləməsində səlahiyyətli iqtisadi operator statusu ilə bağlı öhdəliklər sistemli yanaşma və müqayisəli təhlil sferasında araşdırılır və gömrük münasibətlərinin bu sahədə təkmilləşdirilməsi istiqamətində uyğun gələn səmərəliləşdirici təkliflər əsaslandırılır. Hesab edilir ki, dövlət büdcəsinin gəlirlərinin formalaşdırılmasında yeni mənbələrin aşkar edilmə səmərəsi baxımından səlahiyyətli iqtisadi operator statusu ilə bağlı öhdəliklər daim diqqət mərkəzinə saxlanılmalı və müvafiq sahədə normativ-hüquqi bazanın və strategiyanın daha da təkmilləşdirilməsi vacibdir.

**Ticarətdə səlahiyyətli subyektlər**

Yenidən baxılan Kyoto konvensiyasının (YKK) 3.32-ci Keçid Standartına əsasən ticarətdə səlahiyyətli subyektlər-gömrük orqanları tərəfindən müəyyən edilmiş meyarlara uyğun olan, məhz uzun dövr ərzində gömrük işi üzrə tələblərə şərtsiz riayyət edən və kommersiya sənədləri ilə səmərəli idarəetmə sisteminə malik olan şəxslərdir (hüquqi və fiziki).

"Ticarətdə səlahiyyətli subyektlər" statusu gömrük nəzarətinin səviyyəsinin aşağı salınmasını nəzərdə tutan sadələşdirilmiş prosedurlara girişi təmin edir, bu zaman əsas dayaq bütün zəruri qanunverici və normativ-hüquqi aktların riayyət edilməsinin təminindən çox daxili nəzarət tədbirlərinə edilir (2,255).

Adətən ticarətdə səlahiyyətli subyektlər və səlahiyyətli iqtisadi operatorları (SİO) ÜGT-nın təhlükəsizlik çərçivə standartları ilə verilən müəyyənlik əsasında fərqləndirirlər. SİO-lar ÜGT-nın təhlükəsizlik çərçivə standartları ilə şərh olunan bir sıra təhlükəsizlik standartlarına (əsasən fiziki xarakterli) riayyət etməlidirlər. SİO proqramında könüllü iştirak sayəsində səlahiyyətli iqtisadi operatorlar: fiziki nəzarətin azalması və daha aşağı kateqoriyalı riskin əldə edilməsi kimi müəyyən güzəştlərdən istifadə etsələr də, SİO statusu həmişə sadələşmiş proseduralardan istifadə demək deyildir. Eyni zamanda gömrük orqanları hər iki proqramı birləşdirə və beləliklə, bu proqramın iştirakçılarnın sayının artması fonunda artıq olanı azaltmağa nail ola bilər. Misal olaraq, Avropa İttifaqının SİO-ı iki- səlahiyyətli iqtisadi obyektlər və biq qarışıq "Səlahiyyətli iqtisadi obyektlər-Sadələşmə"nin (sadələşmiş prosedurlara girişi təmin edir) və "Səlahiyyətli iqtisadi obyektlər-Təhlükəsizliy"in (riskin daha aşağı kateqoriyasını təmin edir və yoxlamaların sayını azaldır) dəqiq müəyyən edilmiş statusunu özündə cəmləyir (4,122).

Beləliklə, ticarətdə səlahiyyətli subyektlər və səlahiyyətli iqtisadi operatorları (SİO) ÜGT-nın təhlükəsizlik çərçivə standartları ilə verilən müəyyənlik əsasında fərqləndirirlər, amma bu proqram təcrübədə birləşdirilə də bilər.

**Problemin dürüstləşdirilməsi**

Əgər müntəzəm olaraq, müxtəlif malları idxal və ya ixrac edən və yaxşı nüfuza və hesabat sisteminə malik olan ticarət subyektlərinə həm də zəruri tələblərə riayyət etməyənləri də aid etsək, bu onların qanuna riayyət etməsinə və sosial cəhətdən məsul korporativ davranışa görə mükafat yox, daha çox cəza olacaqdır. Bu həm ticarət, həm də inzibati məsrəflərin çoxluğu deməkdir, belə ki, gömrük orqanları aşağı risk kateqoriyasına aid olan ticarət subyektlərinə nəzarətin həyata keçirilməsinə həddən artıq çox resurs ayırmış olurlar. Buna görə də, qanunvericiliklə müəyyən edilən tələblərə riayyət edilməsinə görə mükafat qismində belə subyektlərə sadələşdirilmiş gömrük rəsmiləşdirilməsi prosedurlarına girişi təqdim etmək lazımdır.

Nazirlər Kabinetinin 27 avqust 2013-cü il tarixli 230 №li qərarı "Səlahiyyətli iqtisadi operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması Qaydaları"nın təsdiq edilməsi haqqındadır. Bu Qaydalar Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 31.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və hüquqi şəxslərə səlahiyyətli iqtisadi operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması qaydalarını, habelə səlahiyyətli iqtisadi operatorun fəaliyyətini tənzimləyən tələbləri müəyyən edir.

Ümumdünya Gömrük Təşkilatının Çərçivə Təhlükəsizlik standartlarında (*Çərçivə Təhlükəsizlik standartları Ümumdünya Gömrük təşkilatı tərəfindən 2005-ci ilin iyun ayında qəbul olunmuşdur. Standartların məqsədi təhlükəsizliyi artırmaq və beynəlxalq ticarət prosedurlarını sadələşdirməkdir. Çərçivə Təhlükəsizlik standartları sistemi iki əsas prinsipə əsaslanır: gömrük orqanları arasında qarşılıqlı əlaqə və gömrük orqanları və şirkətlər arasında əməkdaşlıq. Buna əlavə ola-*

*raq, "Kolumb" proqramı – potensialın güclənməsi proqramı da mövcuddur. Çərçivə Təhlükəsizlik standartlarının əsas elementləri aşağıdakılardır:*

- ✧ *yük haqqında ilkin məlumatın razılaşdırılması və harmonikləşdirilməsi;*
- ✧ *risklərin idarə olunmasına əsaslanan yanaşmanın tətbiqi;*
- ✧ *göndərən ölkənin gömrük orqanları tərəfindən yüksək riskli konteynerlərə baxış;*
- ✧ *təhlükəsizlik standartlarına riayyət edən şirkətlər üçün güzəşt proqramı.*

*Çərçivə Təhlükəsizlik standartları gömrük orqanlarına ünvanlanan tövsiyələri də əks etdirir ki, bu da aşağıdakı məsələlərə toxunur:*

- ❖ *gömrük nəzarətinin kompleks proseduralarının həyata keçirilməsi yolu ilə təchizat zəncirinə kompleks idarəetmənin təmini;*
- ❖ *yüklərin müfəttişliyi sahəsində səlahiyyətlər, bu məqsədlər üçün müasir texnologiyaların tətbiqi;*
- ❖ *yüksək riskli potensial yüklərin müəyyən edilməsi üçün risklərin idarəetmə sisteminin tətbiqi;*
- ❖ *yüksək riskli yük və konteynerlərin müəyyən edilməsi;*
- ❖ *yük və konteynerlər haqqında ilkin elektron məlumatvermə;*
- ❖ *nəzarət və müfəttişlik obyektlərinin müəyyən edilməsi üçün birgə tədbirlərin aparılması.*

*Bir çox ölkələr, o cümlədən Azərbaycan Respublikası da milli səviyyədə Çərçivə Təhlükəsizlik standartlarına əsaslanan tədbirləri qəbul etmiş və təhlükəsizliyin təminat proqramlarının qarşılıqlı olaraq tanınması yolu ilə bir-birləri ilə əməkdaşlıq edirlər.* Verilən müəyyənliyə əsasən, Səlahiyyətli iqtisadi operator (SİO)-istənilən hüquqi şəxsdir ki, malların beynəlxalq hərəkətinə cəlb olunur və milli gömrük orqanları tərəfindən və ya onların adından ÜGT-nın təhlükəsizlik standartlarına və ya anoloji təchizat sisteminə uyğun təşkilat kimi tanınır. SİO kateqoriyası altına əsasən, istehsalçılar, idxalatçılar, ixracatçılar, brokerlər, daşıyıcılar, ticarət vasitəçiləri, liman, aeroport və terminal operatorları, inteqrasiya edilmiş operatorlar, anbar və distribütorlar düşür.

Artıq uzun illərdir ki, bəzi hallarda keçən əsrin 70-ci illərindən gömrük orqanları beynəlxalq təchizat sistemi çərçivəsində təhlükəsizliyin təmin olunmasına çox böyük diqqət yetirir, bununla belə, ümummilli konteksdə ticarətin təhlükəsizliyinin təmin edilməsinə yönələn bütöv bir xüsusi proqram işlənib hazırlanmışdır. SİO konsepsiyası bu proqramların bir hissəsidir. ÜGT-nın Çərçivə Təhlükəsizlik standartları da bu məqsədlə işlənmişdir. Həmin vaxtdan ticarət iştirakçıları SİO statusunu əldə etmək üçün ayrı-ayrı vaxtlarda kifayət qədər səy göstərməli olurlar, amma hətta SİO olduqdan sonra da, ticarət təşkilatı daima onu doğrultmalıdır. Bu zaman *əksər hallarda gömrük orqanları SİO statusu daşıyanlara ticarət prosedurlarının sadələşdirilməsi planında hansısa əhəmiyyətli güzəştlər təqdim etmir*, bu da təbii ki, ticarət məsrəflərini artırır. Ona görə də, SİO proqramının tətbiqi qlobal miqyasda çox sürətlə inkişaf etmir. Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli qanunu ilə təsdiq edilmiş Gömrük Məcəlləsinin 155-ci maddəsi "Sadələşdirilmiş bəyannamələr"

adlanır. 155.2 alt maddəsində deyilir: “Aşağıdakı hallarda gömrük orqanlarına sadələşdirilmiş bəyannamələr təqdim edilir:

155.2.1. səlahiyyətli iqtisadi operatorlar malları müvafiq gömrük proseduru altında yerləşdirərkən.”

Deməli, Yeni Gömrük Məcəlləsi hər bir halda səlahiyyətli iqtisadi operatora sadələşdirilmiş bəyanetmə imkanı yaradır.

Gömrük Məcəlləsinin 32-ci maddəsinə uyğun olaraq, səlahiyyətli iqtisadi operator statusunun verilməsi üçün şərtlər aşağıdakılardır:

2.1.1. malların təyinat yerinə çatdırılmasının Ümumdünya Gömrük Təşkilatının müəyyən etdiyi təhlükəsizlik normalarına və standartlarına uyğun olaraq təmin edilməsi imkanının mövcudluğu;

2.1.2. gömrük və vergi qanunvericiliyinin tələblərinə riayət edilməsi;

2.1.3. gömrük nəzarəti baxımından əhəmiyyət kəsb edən kommersiya və nəqliyyat sənədlərinin idarə edilməsinə dair qənaətbəxş sistemin olması;

2.1.4. gömrük ödənişlərini və digər ödənişləri həyata keçirmək üçün maliyyə imkanlarının olması;

2.1.5. hüquqi şəxsin fəaliyyət göstərdiyi sahədə ən azı 2 (iki) il təcrübəsinin olması;

2.1.6. müvafiq təhlükəsizlik və mühafizə standartlarının tətbiqi imkanlarının olması;

2.1.7. informasiya mübadiləsini lazımi səviyyədə təmin edən texniki bazanın olması (1, mad.155).

ÜGT-nın Çərçivə Təhlükəsizlik standartları çərçivəsində gömrük orqanları bu statusu alan təşkilatlara bir sıra güzəştlər təqdim etməlidir. ÜGT-nın Çərçivə Təhlükəsizlik standartlarının II bölməsinin 6-cı standartı təhlükəsizlik və sadələşmənin maksimal səviyyəsinin təmin edilməsi üçün gömrük orqanları ilə ticarət iştirakçıları arasında əməkdaşlığı tövsif edir. Amma bu standart sadələşməyə yox, təhlükəsizliyə üstünlük verir, bu da müəyyən dilemma yaradır. Bununla əlaqədar olaraq, ÜGT Çərçivə Təhlükəsizlik standartlarının 5-ci bölməsində şərh olunan SİO üzrə *xüsusi metodik göstərişlər*, həmçinin, xüsusi sektorun səyləri ilə işlənib hazırlanmış SİO üçün *güzəşt planı* işləyib hazırlayıb. Bu güzəştlər yoxlamaların sayının azalmasını, başqa dövlətlərin SİO proqramlarının qarşılıqlı tanınmasını, təhlükəsizlik və təminat sahəsində daha yüngül tələbləri, malların sürətləndirilmiş buraxılışını, həmçinin, ilkin rəsmiləşdirilmə, sadələşdirilmiş prosedurlar, fövqəladə hallarda prioritet xidmət və s.-ni nəzərdə tutur.

ÜGT-nin Çərçivə Təhlükəsizlik standartları və SİO proqramının reallaşması ilə bağlı bütün müvafiq sənədləri ÜGT-nın təhlükəsizlik məsələləri üzrə sənədlər Paketində cəmlənmişdir.

AR Nazirlər Kabinetinin 27 avqust 2013-cü il tarixli 230 № li qərarı "Səlahiyyətli iqtisadi operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması Qaydaları"nın 3-cü bəndi *Səlahiyyətli iqtisadi operatorun fəaliyyətini tənzimləyən tələblər* haqqındadır: “3.1.Malların təyinat yerinə çatdırıl-

masının təhlükəsizliyinin təmin edilməsi və xarici ticarətin asanlaşdırılması məqsədi ilə gömrük nəzarətinin sadələşdirilmiş forma və üsullarından istifadə etmək üçün səlahiyyətli iqtisadi operator Komitə tərəfindən ona verilən hüquqlar çərçivəsində malların idxalı və ixracı zamanı onların gömrük rəsmiləşdirilməsi üçün Gömrük Məcəlləsinin 108.1-ci maddəsində nəzərdə tutulan zəruri əməliyyatları özü həyata keçirir.

3.2. Gömrük Məcəlləsinin 108.1-ci maddəsində nəzərdə tutulan zəruri əməliyyatlar gömrük orqanlarını əvvəlcədən məlumatlandırmaqla, səlahiyyətli iqtisadi operator tərəfindən mülkiyyətində, icarəsində və ya istifadəsində olan tikililərdə və açıq sahələrdə həyata keçirilir.

3.3. Səlahiyyətli iqtisadi operator tərəfindən Gömrük Məcəlləsinin 108.1-ci maddəsində nəzərdə tutulan zəruri əməliyyatların aparılması üçün nəzərdə tutulmuş tikililər və açıq sahələr malların qorunması, onlara kənar şəxslərin icazəsiz müdaxiləsi imkanını istisna edən, o cümlədən belə mallar üzərində gömrük nəzarətinin aparılmasına imkan verən formada qurulmalı və təchiz edilməlidir.

3.4. Gömrük nəzarəti altında olan malların gömrük nəzarəti altında olmayan mallarla birgə saxlanmasına gömrük orqanı məlumatlandırılmaqla yol verilir. Gömrük nəzarəti altında olan mallar səlahiyyətli iqtisadi operator üçün münasib olan hər hansı bir formada (ayırıcı lent, ayırıcı divar, texnoloji keçid, müvafiq lövhə və yazılar və sair), onlar digərlərindən vizual olaraq asanlıqla ayırd edilməsini mümkün edən şəkildə yerləşdirilməlidir.

3.5. Gömrük orqanları tərəfindən səlahiyyət verildikdə, səlahiyyətli iqtisadi operator malların bəyan edildiyi gömrük prosedurunu tənzimləyən şərtlərə əməl olunmasını təmin etmək məqsədi ilə eyniləşdirmə tələb olunduğu hallarda Gömrük Məcəlləsinin 87-ci maddəsinə uyğun olaraq malların eyniləşdirilməsi tədbirlərini həyata keçirir.

3.6. Mallara və nəqliyyat vasitələrinə tətbiq edilmiş eyniləşdirmə vasitələrinin götürülməsi və ya məhv edilməsi gömrük orqanları tərəfindən səlahiyyət verildiyi hallarda səlahiyyətli iqtisadi operator tərəfindən həyata keçirilə bilər.

3.7. Gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi məqsədilə ayrı-ayrı gömrük əməliyyatlarının həyata keçirilməsi üçün gömrük orqanları ilə kağız üzərində yazılı və ya elektron formada razılaşdırılmaqla, səlahiyyətli iqtisadi operator tərəfindən gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi iş vaxtından kənar saatlarda da aparılır.

3.8. Səlahiyyətli iqtisadi operator tərəfindən gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi "elektron növbə" elektron idarəetmə sistemində müəyyən olunmuş ardıcıllıqdan kənar aparılır.

3.9. Səlahiyyətli iqtisadi operator gömrük orqanları ilə məlumatların elektron formada mübadiləsini həyata keçirir.

3.10. Gömrük orqanları və səlahiyyətli iqtisadi operatorlar xarici ticarət-

də risklərin müəyyənləşdirilməsi və qarşısının alınması üzrə tədbirlərin hazırlanmasında əməkdaşlıq məqsədilə öz aralarında təqdim olunması gömrük qanunvericiliyi ilə bilavasitə tələb edilməyən məlumatların da mübadiləsini həyata keçirirlər. Bu mübadilə müvafiq müqavilə əsasında həyata keçirilir və gömrük orqanlarının səlahiyyətli iqtisadi operatorların kompyuter şəbəkəsinə daxil olmaq hüququnu nəzərdə tutur. Bu bənddə qeyd edilən əməkdaşlıq zamanı təqdim olunan məlumatlar onların açıqlanması barədə tərəflərin razılığı əldə edilənədək məxfi saxlanılır.

SİO-nun fəaliyyətini tənzimləyən bu qaydalar ÜGT-nın SİO üzrə metodiki göstərişlərinə əsaslanır. ÜGT-nın SİO üzrə metodiki göstərişləri 2010-cu ilin may ayında qəbul olunmuşdur. ÜGT SİO üzrə metodiki göstərişləri Çərçivə Təhlükəsizlik standartları paketi çərçivəsində nəşr etdirmişdir ki, bunun da məqsədi SİO proqramının yaradılması üzrə gömrük orqanlarına praktiki metodiki tövsiyyələrin təqdim edilməsi məqsədi daşıyır.

ÜGT-nın SİO üzrə metodiki göstərişləri bu proqramın reallaşmasına mərhələli yanaşmanı nəzərdə tutur. Cəmi 9, o cümlədən: giriş mərhələsi və təhlil, pilot reallaşması, qiymətləndirmə, digər pilot layihələrinin həyata keçirilməsinin başlanğıcı və sistemin yekun tətbiqi mərhələləri nəzərdə tutulur.

Deməli, SİO üzrə proqramın reallaşdırılması mərhələli yanaşmanı nəzərdə tutur. Proqramların reallaşdırılması zamanı səhvlər də mümkündür. Bunlardan necə qaçmaq olar? Bazar iqtisadiyyatın nəzəri və təcrübi müstəvisində bu kimi suallar çoxşaxəli cavablandırılır.

## ƏDƏBİYYAT

1. AR-nın Yeni Gömrük Məcəlləsi. 2011, Hüquq ədəbiyyatı nəşriyyatı, 2015, mad.31; 155
2. "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında Beynəlxalq Konvensiyanın dəyişdirilməsi haqqında protokol". Brüssel, 27 iyul 1999, 255 s.
3. Kyota Konvensiyası. Baş Əlavəyə Rəhbərlik. 6-cı bölmə. Gömrük nəzarəti. 245 s.
4. Razmısloviç K.R. Kyota Konvensiyası. Belorusiya Milli Texniki Universiteti. 2010, 122 s.

## ОСНОВНЫЕ МЕЖДУНАРОДНЫЕ НОРМЫ, УРЕГУЛИРУЮЩИЕ ВНЕШНЕЭКОНОМИЧЕСКУЮ ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**М. Я.ЯДУЛЛА**

### РЕЗЮМЕ

Обычно Уполномоченных субъектов торговли и Уполномоченных экономических операторов (УЭО) различают на основании определения, данного в Рамочных стандартах безопасности ВТамО. УЭО должны соответствовать ряду стандартов безопасности (главным образом физического характера), изложенным в Рамочных стандартах безопасности ВТамО. Несмотря на то, что благодаря добровольному участию в программе УЭО Уполномоченные экономические операторы пользуются определенными льготами, как-то: сокращение физического контроля и получение более низкой категории риска, статус УЭО не всегда предполагает наличие доступа к упрощенным процедурам. В то же время тамо-

женные органы могут объединить обе программы и, таким образом, добиться сокращения избыточности на фоне увеличения количества участников данных программ.

В статье рассматривается, что реализация программ по созданию института уполномоченных субъектов торговли требует наличия благоприятного климата, определяющего условия, при которых компания может рассчитывать на получение статуса уполномоченного субъекта торговли и сопутствующих привилегий, предоставляемых таможенными органами.

**Ключевые слова:** пересмотренная Киотская Конвенция, уполномоченные экономические операторы, упрощенные таможенные процедуры

## MAJOR INTERNATIONAL NORMS GOVERNING FOREIGN ECONOMIC ACTIVITY OF THE REPUBLIC OF AZERBAIJAN

**M.Y.YADULLA**

### SUMMARY

Usually authorized subjects of trade and Authorized Economic Operator (AEO) distinguish on the basis of the definition given in the WCO SAFE Framework of Standards. AEO must meet a number of safety standards (mainly physical character) as outlined in the WCO SAFE Framework of Standards. Despite the fact that due to voluntary participation in the program AEO Authorized Economic Operators enjoy certain privileges, such as: reduction of physical control and obtain a lower risk category, AEO status does not always have access to simplified procedures. At the same time, the customs authorities may combine both programs and thus achieve a reduction in redundancy against a background of increasing the number of participants in these programs.

The article considers that the implementation of programs to establish the institute of authorized subjects of trade requires a favorable climate, which determines the conditions under which a company can expect to receive the status of authorized subject of trade and related privileges granted by the customs authorities.

**Keywords:** Revised Kyoto Convention, Authorized Economic Operators, simplified customs procedures